Ədəbiyyat qəzeti

# Fəxrəddin MEYDANLI-70



Hörmətli Fəxrəddin müəllimi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Fəxrəddin Meydanlı (Fəxrəddin Seyfəddin oğlu Əzizov) 1954-cü ilin aprelin 10-da Ucar rayonunun Boyat kəndində müəllim ailəsində anadan olub.

Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Əmək fəaliyyətinə Ucar rayonunun M.Füzuli adına kolxozunda kolxozçu kimi başlayıb. 1973-1974-cü illərdə Yerli Sənaye Nazirliyinin Təmir-tikinti-quraşdırma İdarəsinin Ucar şəhər sahəsində, sonra 5 №-li "Azərkəndtikinti" trestinin Ucar şəhərindəki 50 №-li Səyyar- mexanikləşdirilmiş Dəstəsində fəhlə işləyib. 1977-2003-cü illərdə Yerli Sənaye Nazirliyinin Evlərdə Zəhmət Kombinatında mühasib, Kombinatın Əmək və əmək haqqının təşkili şöbəsində mühəndis və əmək haqqı üzrə böyük mühəndis, şöbə müdiri, Maliyyə Nazirliyinin mərkəzi aparatının Dövlət büdcəsinin icmallaşdırılması şöbəsində Maliyyə və statistika yarımşöbəsinin müdiri, mərkəzi aparatın ayrı-ayrı idarə və baş idarələrində müxtəlif vəzifələrdə, 2003-2008-ci illərdə Dövlət Sosial Müdafiə Fondunun mərkəzi aparatında Əmək pensiyaları şöbəsinin müdir müavini, 2008-2017-ci illərdə Azərbaycan Dövlət Neft Şirkətinin İqtisadiyyat və Uçot İdarəsinin Vergilər şöbəsində işləyib.

Ötən əsrin 70-ci illərindən bədii yaradıcılıqla məşğuldur. "Sevdalı könüllər" adlı ilk şeirlər kitabı "Yazıçı" Ədəbi Nəşrlər evi tərəfindən 2000-ci ildə, "Azərbaycan torpağı - gözəlliklər diyarı" adlı ikinci şeirlər kitabı 2004-cü ildə, "Sevənlər qocalmır" adlı üçüncü şeirlər kitabı 2009-cu ildə, "Mükəmməl adam" adlı kitabı 2010-cu ildə, "Musiqimizi yaşadanlar" publisistik yazılar toplusu 2017-ci ildə, "Elmin yollarında" publisistik yazılar toplusu 2019-cu ildə çapdan çıxmışdır. Şeirlərinə mahnılar bəstələnib.

Hörmətli Fəxrəddin müəllimi bir daha yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, yaradıcılıq uğurları diləyirik.

**Azərbaycan Yazıçılar Birliyi**